**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

# 5503.01 – ÖLKƏLƏR TARIXI FƏNNİ ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHAN PROQRAMI

*Fakültə Elmi Şurasının 1 may 2026-cı il tarixli (05 saylı protokol) iclasının qərarı ilə təsdiq olunmuşdur*

**BAKI – 2026**

**Tərtib edənlər:** Professor Iradə Hüseynova
Dosent Abutalıb Cəlilov
Dosent İqbal Ağayev
Dosent Məmmədağa Baxışov
Dosent Sevinc Ruintən
t.ü.f.d. Sayad Mehdizadə

**Elmi redaktor:** Dosent Kəmalə Nəcəfova

**MƏZMUNU**

ÜMUMİ QAYDALAR ………………………………………………………………… 4
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədi ……………………… 4
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanılan bacarıqlar .... 4
Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu ...................................... 5

FƏSİL 1. Qədim dünya və orta əsrlər tarixi fənni üzrə ............................................... 6
FƏSİL 2. Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi fənni üzrə .................... 8
FƏSİL 3. Asiya və Afrika ölkələri tarixi fənni üzrə ......................................................10
FƏSİL 4. Qafqaz tarixi fənni üzrə ..........................................................................12
FƏSİL 5. Slavyan ölkələri tarixi fənni üzrə ..................................................................15
FƏSİL 6. Türk xalqları tarixi fənni üzrə ......................................................................16

Bölmə IV. Tədris-metodik və informasiya təminatı .......................................................18
Bölmə V. Qiymətləndirmə meyarları ..........................................................................21
Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi suallar ................23

## ÜMUMİ QAYDALAR

Bakı Dövlət Universitetinin doktorantura təhsil pilləsində müxtəlif istiaqmətlər üzrə mütəxəssislərin hazırlanması həyata keçirilir. "Ölkələr tarixi" ixtisası həmin istiqamətlərdən biri olaraq müəyyənləşdirilib. Hazırki ixtisas çərçivəsində aşağıdakı istiqamətlər üzrə:

- ✓ "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının nəzdində İtaliya, Yunanıstan;
- ✓ "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının nəzdində Avropa və Amerika;
- ✓ "Asiya və Afrika ölkələri tarixi" kafedrasında Asiya və Afrika;
- ✓ "Qafqaz tarixi" kafedrasının nəzdində Qafqaz;
- ✓ "Slavyan ölkələri tarixi" kafedrası üzrə slavyan;
- ✓ "Türk xalqları tarixi" kafedrasının nəzdində türk dövlətləri

tələbata uyğun olaraq, əvvəlcədən müəyyənləşdiriləcək konkret bir ölkə üzrə ölkəşünas mütəxəssislərin hazırlanması nəzərdə tutulur.

"Ölkələr tarixi" ixtisası üzrə hazırlanacaq mütəxəssislər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sistemində, Diaspora ilə iş üzrə Dövlət Komitəsində, həmçinin Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin qurulmasında, bununla yanaşı konkret istiaqmətli elmi araşdırma institut və müəssisələrində, təhsil müəssisələrində işə cəlb edilə bilərlər.

## BÖLMƏ I.

## ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ MƏQSƏDİ

"Ölkələr tarixi" ixtisası üzrə təhsilin **məqsədi** - konkret seçilmiş bir ölkə üzrə yüksək keyfiyyətli mütəxəssilərin hazırlanmasıdır. Bu məqsədlə, seçilmiş ölkələr üzrə təhsil alan doktorantlara **öyrədiləcək**:

- Seçilmiş ölkə haqqında ümumi məlumat;
- Seçilmiş ölkənin geosiyasi vəziyyəti;
- Əhalisi, demoqrafik vəziyyəti;
- Tarixi, mədəniyyəti, dini, dili;
- Siyasi sistemi, xarici siyasəti;
- Müasir beynəlxalq münasibətlər sistemində yeri və s.

## BÖLMƏ II.

## FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANILAN BACARIQLAR

"Ölkələr tarixi" ixtisası üzrə təhsil almış doktorantların imtahan verməsi prosesində aşağıdakı bacarıqları yoxlanılacaq:

- Öyrəndiyi ölkənin dili, tarixi, mədəniyyətinə nə dərəcədə yiyələndiyi;
- Öyrəndiyi ölkənin siyasi sistemi; xarici siyasəti haqqında bilikləri;

- Öyrəndiyi ölkənin aid olduğu regionun xüsusiyyətləri və vəziyyəti haqqında bilikləri;
- Öyrəndiyi ölkənin beynəlxalq mübahisələri haqqında bilikləri;
- Öyrəndiyi ölkənin müasir beynəlxalq münasibətlər sistemini yeri və s. məsələlərlə bağlı bilikləri.

## BÖLMƏ III.
## FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

Hazırki proqram bakalavr və magistratura təhsil pillələrində "Tarixçi", "Tarix müəllimi", "Ölkəşünaslıq", "Regionşünaslıq" və "Beynəlxalq münasibətlər" ixtisasları üzrə təhsil almış tələbələrin "Ölkələr tarixi" ixtisası üzrə doktorantura təhsil pilləsinə imtahanı zamanı istifadə edilmək üçün hazırlanmışdır. Proqram hazırlanması və imtahan suallarının müəyyənləşdirilməsi zamanı əvvəlki təhsil pillələrində "Ölkələr tarixi" ixtisasının sadəcə magistratura təhsil pilləsində və sadəcə bir neçə ölkə üzrə həyata keçirildiyi də nəzərə alınmışdır.

## FƏSİL 1.

## QƏDİM DÜNYA VƏ ORTA ƏSRLƏR TARİXİ FƏNNİ ÜZRƏ

**Qədim Mesopotamiya.** Şumer şəhər dövlətləri. Erkən sülalə dövründə Şumer şəhər-dövlətlərinin siyasi tarixi. Akkad dövləti. Sarqonun fəaliyyəti. Mərkəzləşdirilmiş dövlətin yaranması və onun nəticələri. Akkad şahlığı Sarqonun varisləri dövründə. Şumer-Akkad şahlığının yaranması. III Ur sülaləsi. Qədim Babilistan. Babil şahlığı Hammurapinin hakimiyyəti dövründə. Hammurapinin varisləri dövründə Babilin zəifləməsi. Kassi tayfalarının Babilistanı işğal etməsi və qədim Babil şahlığının varlığına son qoyulması. Orta Babil şahlığı kassilərin hakimiyyəti dövründə. Kassi sülaləsinin hakimiyyəti dövründə Babilin siyasi tarixi və beynəlxalq əlaqələri. Babildə kassi sülaləsinin hakimiyyətinə son qoyulması. Yeni Babil dövləti: Kassi sülaləsinin hakimiyyətindən sonrakı dövrdə (e.ə.II minilliyin sonu-I minilliyin başlanğıcı). Babil İran imperiyası tərkibində. Makedoniyalı İsgəndərin işğalları və İran imperiyasının süqutu. Babil Makedoniyalı İsgəndərin imperiyası tərkibində. Babil dövlətinin varlığına son qoyulması. Qədim Assuriya. Aşşur şəhər dövləti e.ə. III-II minilliyin başlanğıcında. Orta Assur dövrü: E.ə. XV-XIV əsrin birinci yarısında Assuriyanın Mitanni və Babil asılılığından azad olması. E.ə.XII əsrdə Assuriyanın zəifləməsi. I Tiqlatpalasarın dövründə Assuriyanın yeni dirçəlişi. Onun daxili və xarici siyasəti. Orta Assur şahlığının süqutu. Yeni Assur dövrü: Assuriya e.ə. IX-VIII əsrin birinci yarısında.Qüdrətli Assuriya hərbi dövləti. E.ə.VII əsrin kinci yarısında Yaxın Şərqdə beynəlxalq vəziyyət. Midiya-Babil ittifaqı. Assuriyanın süqutu.

**Qədim Misir.** Erkən Şahlıq dövründə mərkəzləşdirilmiş Misir dövlətinin yaranmasının başa çatması. Qədim Şahlıq dövrü fironlarının daxili və xarici siyasəti. Misir dövlətinin nomlara parçalanması. Orta Şahlıq dövründə Herakleopol və Fiv arasında mübarizə. Misirin yenidən vahid dövlətdə birləşdirilməsi. Xarici siyasətin əsas istiqamətləri. Hiksosların Misiri işğal etməsi və Orta Şahlığın süqutu. Yeni Şahlıq dövründə hiksosların Misirdən qovulması. XVIII sülalə fironlarının işğalları. IV Amenxotep (Exnaton) və onun dini-siyasi islahatı. XIX sülalənin hakimiyyətə gəlməsi. Misir - Het münasibətləri. Yeni Şahlıq Misir dövlətinin zəifləməsi və tənəzüllü. Misir Son Şahlıq dövründə. Misir Liviya və Efiopiya sülalələrinin hakimiyyəti altında. Saisin Kuş işğalına qarşı müqaviməti. Misirdə qısamüddətli Assur ağalığı. Saisin yüksəlişi. Misirin birləşdirilməsi və Assur ağalığına son qoyulması. XXVI Sais sülaləsinin hakimiyyəti. İranın Misiri işğal etməsi. Misir Əhəməni (Haxamaniş) imperiyasının tərkibində.Əhəməni imperiyasının süqutu. Misir Makedoniyalı İsgəndərin imperiyası tərkibində.Misirin ellinizm mərhələsinə daxil olması.

**Qədim İran.** Qədim Elam dövrü. E.ə. III minillik - II minilliyin ortasında Elamın Şumer ilə iqtisadi və mədəni əlaqələri. Akkadın və III Ur sülaləsinin Elama qarşı işğalçılıq yürüşləri. Orta Elam dövrü. E.ə. XIV-XI əsrlərdə Elam hökmdarlarının daxili siyasəti. Babilistan ilə münasibətlər. Yeni Elam dövrü. Elamın İkiçayarası ilə yeni münaqişələri.E.ə. VIII - VII əsrlərdə Babil və Aşşur ilə münasibətlər. Yeni Elam şahlığının süqutu. Elam Əhəməni (Haxamaniş) imperiyasının tərkibində. Midiya dövləti. Midiya tayfaları e.ə. IX-VII əsrin başlanğıcında. Aşşurların Midiya ərazisinə hərbi yürüşləri. Kaştaritinin (Fraort) üsyanı və müstəqil Midiya dövlətinin yaranması. Kiaksar. Midiyanın yüksəlişi. Fars tayfalarının yüksəlişi. II Kirin (Kuruş) üsyanı və Midiya dövlətinin süqutu. Midiya Əhəməni imperiyasının tərkibində. Əhəməni (Haxamaniş) imperiyası. Fars tayfaları e.ə. I minilliyin əvvəllərində. Fars şahlığı (e.ə. VII əsr - VI əsrin əvvəlləri). II Kirin (Kuruş) başçılığı ilə farsların üsyanı. Midiya dövlətinin süqutu və Əhəməni -İran dövlətinin yaranması. II Kirin işğalları. II Kambiz. Misirin işğalı. Qaumatanın

hakimiyyətə gəlməsi və daxili siyasəti. Daranın başçılığı ilə fars əyanlarının sui-qəsdi və Qaumatanın öldürülməsi. İran I Daranın hakimiyyəti dövründə. İran e.ə. V-IV əsrlərdə: İran - Yunan müharibələri. Makedoniyalı İsgəndərin Şərq yürüşü və Əhəməni imperiyasının süqutu.

**Qədim Hindistan.** Hind sivilizasıyası. "Ved dövrü". Hindistan e.ə. I minilliyin 2-ci yarısı – eramızın I minilliyinin 1-ci yarısında. Hindistanın şimal-qərb əraziləri (Hind çayı vadisi) Əhəməni dövlətinin tərkibində. Qədim Hind dövlətləri (Maqadha, Koşala, Avanti və b.) arasında siyasi üstünlük uğrunda mübarizə. Nand sülaləsinin hakimiyyətə gəlməsi. Hindistana Yunan - Makedoniya müdaxiləsi. Nand sülaləsinin devrilməsi. Maurya imperiyası və onun tərəqqisi. Yunan – Baktriya dövləti ilə toqquşmalar. Ümumhindistan dövlətinin zəifləməsi. Hindistan Maurilərdən sonrakı dövrdə: Hind-Yunan, Hind-Sak, Hind-Parfiya dövlətləri. Quşanlar dövləti. Qupt imperiyasının yaranması. Hun - eftalitlərin ("ağ hunlar") hücumu. Qupt imperiyasının süqutu.

**Qədim Çin.** Çində erkən dövlətlər. Şan-İn və Qərbi Çjou dövlətləri. Qədim Çin sivilizasiyasının kökləri. Çin Şan-İn sülaləsi dövründə. Çjou hökmdarı U-vanın hərbi yürüşləri. Şan-İn dövlətinin məğlubiyyəti və süqütu. Qərbi Çjou dövləti: siyasi tarix, iqtisadiyyat və ən mühüm mədəni nailiyyətlər. Qədim Çin şahlıqlarının hegemonluq uğrunda mübarizəsi. Sin şahlığı. Şan Yanın islahatları. Sin imperiyası. Mərkəzləşdirilmiş dövlətin yaranması və imperiya elan edilməsi. İctimai-siyasi ziddiyyətlərin kəskinləşməsi və e.ə. III əsrin sonlarında xalq üsyanı. Sin sülaləsinin devrilməsi. Xan imperiyası (e.ə.III - eramızın III əsrləri). Erkən və ya Böyük Xan sülaləsinin hakimiyyəti. Van Manın islahatları və "Qırmızıqaşlılar" hərəkatı. Son Xan (Kiçik və ya Şərqi Xan) sülaləsinin hakimiyyəti. Böyük İpək yolu və Çin.

**Qədim Yunanıstan.** Yunanıstan ən qədim dövrlərdə. Egey mədəniyyəti. Arxeoloji nailiyyətlər. Troya müharibəsi və Yunanıstanın sonrakı inkişafına onun təsiri. Yunanıstan e.ə. XI-IX əsrlərdə. "İlliada" və "Odiseya" poemalarına görə yunanların təsərrüfatı və nəsli münasibətlərin səviyyəsi. Arxaik Yunanıstan (e.ə. VIII-VI əsrlərdə). Yunan polislərinin formalaşması. Erkən yunan tiranlığı. Peloponnes e.ə.VIII-VI əsrlərdə. Spartada ictimai ziddiyyətlərin xüsusiyyətləri. Qədim Attika. Afina Attikanın mühüm sənətkarlıq-aqrar polisi kimi. Yunan-İran müharibələri. Həlledici döyüşlər. "I Afina dəniz ittifaqı"nın yaranması. Kalli sülhü. Yunanların qələbəsinin səbəbləri. E.ə.V-IV əsrlərdə Yunanıstanın ictimai-iqtisadi quruluşu. Afina demokratiyasının çiçəklənməsi. Sparta oliqarxiyası və onun qədim yunan cəmiyyətində rolu. Peloponnes müharibəsi və onun mərhələləri. Müharibənin nəticələri. Makedoniyanın yüksəlişi və Yunanıstanda Makedoniya hegemonlugunun yaranması. Makedoniyalı İsgəndərin işğalları. Şərq yürüşü. Ellinizm anlayışı. Ellin mədəniyyəti. Azərbaycan ellinizm mədəniyyəti sistemində.

**Qədim Roma.** İtaliya e.ə.II minilliyin sonu – I minilliyin əvvəllərində. İtaliyanın əhalisi. Etrusk dili və mənşəyi problemi. Romada dövlətin meydana gəlməsi (e.ə. VIII-VI əsrlərdə). Romada erkən Respublika (e.ə. VI əsr – e.ə. III əsrin I yarısı). Romanın ictimai-iqtisadi həyatı. Romanın xarici siyasəti. Romada son Respublika (e.ə. III əsrin II yarısı – e.ə. I əsr). "Klassik quldarliq" anlayışı. İctimai təbəqələşmə. Roma Respublikasının böhranı. E.ə. I əsrin 80-ci illərində vətəndaş müharibələri. I Triumvirat. Pompey, Sezar, Krass. II Triumvirat. Antoni, Lepid, Oktavian. Misirin Romya birləşməsi. Romada erkən İmperiya (e.ə.30 – e.192-ci illəri). Prinsipat sisteminin möhkəmlənməsi. İnzibati quruluş. I-II əsrlərdə Roma cəmiyyəti. III əsr Roma İmperiyasının böhranı. Severlər sülaləsi. İctimai-iqtisadi böhran. Romada son İmperiya (e.284 – 476-cı illəri). Diokletian və dominat sisteminin yaranması. Qərbi Roma imperiyasının süqutu və «barbar» dövlətlərinin meydana gəlməsi. «Xalqların böyük köçü»nün başlanması.

Qotlar. Hunlar. Qərbi Roma imperiyası ərəfəsində barbar dövlətləri. Qərbi Roma imperiyasının süqutu. Frank krallığının yaranması. «Barbar» işğallarının nəticələri.

## FƏSİL 2.

## AVROPA VƏ AMERİKA ÖLKƏLƏRİNİN

## YENİ VƏ MÜASİR TARİXİ FƏNNİ ÜZRƏ

**Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi anlayışı**. Avropa və Amerika ölkələrinin yeni və müasir tarixinin aktual problemlərinin araşdırılması, Ümumdünya tarixində onun yeri. Avropa və Amerika ölkələrinin yeni və müasir tarixinin yeni dövr və ən yeni dövr bölmələri üzrə dövrləşdirilməsi. Birinci və İkinci Dünya müharibələri. SSRİ-nin süqutu və onun beynəlxalq münasibətlərə təsiri. "Soyuq müharibə"nin başa çatması və onun nəticələri. Varşava Müqaviləsi Təşkilatının buraxılması. Şərqi Avropa ölkələrində dəyişikliklər.

**Şimali Amerikada İstiqlaliyyət uğrunda müharibə. ABŞ-ın yaranması. ABŞ XVIII-XX əsrlərdə.** İstiqlaliyyət müharibəsi: "İstiqlaliyyət bəyannaməsi" və Amerika Birləşmiş Ştatlarının yaranması. Müharibədən sonra sosial-iqtisadi ziddiyyətlərin kəskinləşməsi. D.Şeys üsyanı. "Konfederasiya maddələrindən" 1787-ci il konstitusiyasına doğru. Yeni Konstitusiyasının xarakteri. Hüquqlar haqqında Bill uğrunda mübarizə. Konstitusiyaya əlavələr. ABŞ-ın xarici siyasəti. Qərbdə ərazi ekspansiyası. Meksika ilə müharibə. "Monro doktrinası". 1912-ci il prezident seçkiləri. V.Vilsonun daxili və xarici siyasəti. İkinci dünya müharibəsindən sonra ABŞ-ın iqtisadi və siyasi vəziyyəti. ABŞ-ın dünya ağalığı iddiaları. "Trumen doktrinası". "Marşall planı". Şimali Atlantika paktı. 1968-ci il prezident seçkiləri. 70-cı illərdə ABŞ-ın iqtisadi vəziyyəti. R.Nikson hökumətinin daxili və xarici siyasəti. "Uotergeyt" əhvalatı J.Ford hökumətinin daxili və xarici siyasəti. R.Reyqan hökumətinin xarici siyasəti. "Strateji müdafiə təşəbbüsü" (1983). Sürətlə silahlanmanın güclənməsi. Reyqan hökumətinin ABŞ-ın nüvə üstünlüyünə nail olmaq xətti. "Ulduz müharibə"lərinin amerikan planları. 1992-ci il və 1996-cı il prezident seçkilərində Demokratlar partiyasının qələbəsi. U.Klinton hökumətinin siyasəti. 90-cı illərdə ölkədə partiya-siyasi mübarizə. ABŞ XXI əsrin əvvəllərində.

**Almaniya XIX - XXI əsrin əvvəllərində.** İrticaya qarşı mübarizədə ilk təşəbbüslər. Tələbə hərəkatı. 1830-cu illərdə kütləvi həyəcanlar. Hambax nümayişi. "İnsan hüquqları cəmiyyəti". Almaniyada burjua liberazminin xarakteri. Müxalifət hərəkatının xırda burjua-demokratik qanadı. Almaniyada siyasi partiyalar. "Kulturkampf" siyasəti və onun iflası. Yunker-burjua blokunun formalaşması. Militarizmin güclənməsi. Qərbi Polşa torpaqlarında, Elzas və Lotaringiyada almanlaşdırma siyasəti. II Vilhelm. "Müstəsna qanun"un ləğvi. Bismarkın istefası. Daxili və xarici siyasətdə Kaprivinin "yeni kursu"."Qitə" siyasətindən "dünya siyasətinə" keçid. Panalman ittifaqının yaradılması. Avropa siyasətində Almaniyanın hegemonluq iddiası. "Üç imperator ittifaqı". Berlin konqresi. Avstriya-Rusiya və Rusiya-Almaniya münasibətlərinin kəskinləşməsi. Üçlər ittifaqının yaranması. I Dünya müharibəsindən sonra Almaniyanın ictimai-siyasi həyatında meyllər. Monarxiyaçı qiyam cəhdi, onun iflası. Ölkədə hökumət müvazinətsizliyi. Rur böhranının Almaniyanın daxili-siyasi və beynəlxalq vəziyyətinə təsiri. Ölkədə fövqəladə vəziyyətin tətbiq edilməsi. AFR-in yaranması. Bonn Konstitusiyası. AFR-in iqtisadi inkişafının əsas mərhələləri. "Sosial bazar təsərrüfatı" doktrinasının mahiyyəti. AFR-in NATO-ya daxil olması və Qərbi Almaniyanın hərbiləşdirilməsinin sürətləndirilməsi. Elmi-texniki inqilab. Dünya kapitalist sistemində AFR-in mövqelərinin güclənməsi. 1969-cu ildə bundestaqa seçkilər və "kiçik koalisiya" hökumətinin yaranması. Brandt hökumətinin "Şərq siyasəti". 1972-ci ildə parlament seçkiləri. AFR və Avropa təhlükəsizliyi problemləri. 80-ci illərdə AFR-in iqtisadiyyatı və

siyasəti. 1983-cü il parlament seçkiləri. H.Kol hökumətinin daxili və xarici siyasəti. Almaniyanın birləşdirilməsi. AFR XX əsrin axırı və XXI əsrin əvvəllərində.

**İngiltərə XIX - XXI əsrin əvvəllərində.** İngiltərə burjua inqilabının başlanması. Uzunmüddətli parlament. I və II vətəndaş müharibələri. İndependent respublikası. Kromvelin Protektoratlığı. Stüartlarların bərpası. 1688-ci il “Şanlı inqilab”. “Hüquqlar haqqında” bill. İngiltərə XVII əsrin sonu - XVIII əsrdə. Parlament sisteminin inkişafı. Partiya-siyasi qruplarının formalaşması. Viqlər və torilər. Sənaye çevrilişinin başlanması. İlkin yığımın sonrakı inkişafı. Aqrar inqilabın başa çatması. İngiltərə 1815-1850-ci Ilərdə. Taxıl qanunları. I parlament islahatı. Çartist hərəkatı. XIX əsrin ortalarında ingilis kapitalizminin xüsusiyyətləri. İngiltərə “dünya emalatxanası”dır. 50-60-cı illərdə İngiltərənin müstəmləkə siyasəti. Tredyunionçuluq, fəhlə sinfində onun bazası, ideya səviyyəsi. Tredyunionların London Şurası. 1867-ci il islahatı. XIX əsrin sonuncu rübündə İngiltərənin sosial-iqtisadi vəziyyəti. Liberal və mühafizəkar hökumətinin daxili və xarici siyasəti. İngiltərə XIX əsrin sonu - XX əsrin əvvəllərində. İngilis-bur müharibəsi. XX əsrin əvvəllərində İngitərədə inhisarlar və maliyyə kapitalı. Antantanın yaranması. 1911-ci il parlament islahatı. İngiltərə I Dünya müharibəsi illərində. I Dünya müharibəsindən sonra İngiltərənin iqtisadi və siyasi vəziyyəti. I və II Leyborist hökumətləri. 1926-cı il Ümumi tətili. İngiltərə dünya iqtisadi böhranı illərində. 30-cu illərdə İngiltərənın daxili və xarici siyasəti.

İngiltərə II Dünya müharibəsi illərində.1945-ci il parlament seçkiləri. K.Ettli hökuməti və onun daxili-siyasi kursu. U.Çerçil hökumətinin xarici siyasəti (1951-1955). Yaxın Şərqdə və Cənubi-Şərqi Asiyada hərbi-siyasi blokların yaradılması. İngiltərənin müstəmləkə siyasəti. A.İden hökumətinin xarici siyasəti (1956-1957). Avropada inteqrasiya prosesləri və İngiltərə H.Makmillan (1957-1963) və A.Duqlas-Hyum (1963-1964) hökumətlərinin xarici siyasəti. Dünya kapitalist bazarında İngiltərənin vəziyyəti. İngiltərə və “Yeddilər bazarı”. “Ümumi bazar” və İngiltərənin siyasəti. 1979-cu il seçkiləri. Mühafizəkar Tetçer hökumətinin siyasəti. C.Meysorun başçılığı altında yeni hökumıtin təşkil edilməsi. 1992-ci il parlament seçkiləri. C.Meysor hökumətinin fəaliyyəti. Yeni leyborizm.1997, 2001 və 2005-ci illərin parlament seçkilərində Leyborist partiyasının qələbəsi. E.Bler hökumətinin siyasəti. XX əsrin sonu - XXI əsrin əvvəllərində İngiltərənin sosial-iqtisadi və siyasi vəziyyəti.

**Fransa XIX - XXI əsrlərdə.** Fronda dövründə sosial-siyasi böhran. XVIII əsrdə Fransanın sosial-iqtisadi inkişafının güclənməsi. Fransa maarifçiliyi. İnqilabi şəraitin yaranması. Fransa burjua inqilabının başlanması. “İnsan və vətəndaşın hüquqları” bəyannaməsi. Aqrar qanunvericilik. 1791-ci il konstitusiyası. Monarxiyanın devrilməsi və Respublika. Yakobin diktaturturası. Termidor çevrilişi. Direktoriya rejimi. Fransa Konsulluq və imperiya dövründə. XIX əsrin ilk rübündə Fransanın sosial-iqtisadi inkişafı. 1830-cu il iyul inqilabı.XIX əsrin 30-40-cı illərində Fransada siyasi mübarizə. İyul monarxiyası rejiminə qarşı burjua müxalifəti. 1848-ci il inqilabı. II Respublika. II İmperiya. 1870-ci ildə beynəlxalq şərait. Fransa-Prussiya müharibəsi və onun nəticələri. Fransa-Prussiya müharibəsindən sonra Fransanın xarici siyasəti. Fransa-Almaniya münasibətləri. Afrikada, Cənubi-Şərqi Asiyada müstəmləkə işğalları. İngilis-fransız münasibətləri. Fransa-Rusiya ittifaqı. Panama rüsvayçılığı. Dreyfusun işi və Fransada respublika və demokratiyanın müdafiəsi uğrunda mübarizə. Fransa I Dünya müharibəsi dövründə. Fransa XX əsrin 20-30-cu illərində. Xalq cəbhəsi. Fransa II Dünya müharibəsi dövründə. Müharibədən sonra Fransanın iqtisadi və siyasi vəziyyəti. IV Respublikanın yaranması. De Qollun prezidentliyi dövründə daxili və xarici siyasət. Fransa 70-90-cu illərdə. 90-cı illərdə Fransanın sosial-iqtisadi inkişafı. 1995-ci ilin prezident seçkiləri. J.Şirak hökumətinin daxili və xarici siyasəti. 1990-cı illərin ikinci yarısında Fransada partiya-siyasi mübarizə. Fransa XXI əsrin əvvəlllərində.

**Birinci Dünya Müharibəsi. İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər.** Birinci dünya müharibəsinin başlanması. Almaniya imperializminin strateji planları. Qərb cəbhəsində müharibənin manevr dövrü. Almaniyanın "İldırım sürətli planı"nın boşa çıxmasında Şərq cəbhəsinin rolu. 1916-cı ildə Almaniyanın Qərb cəbhəsində həlledici müvəffəqiyyətlər qazanmaq cəhdləri. Verden döyüşü. 1916-cı ildə rus qoşunlarının Şərq cəbhəsində hücumu. Rumıniyanın müharibəyə girməsi. Dünyanın ərazi cəhətdən yenidən bölüşdürülməsi şərtləri haqqında imperialist dövlətlərin gizli sazişləri. Şərqi Avropa ölkələrində dəyişikliklər. Almaniyanın yenidən birləşməsi. SSRİ-nin süqutu və onun beynəlxalq münasibətlərə təsiri. "Soyuq müharibə"nin başa çatması və onun nəticələri. Varşava Müqaviləsi Təşkilatının buraxılması.

**İtaliya XX əsrdə.** İtaliyada 1929-1933-cü illərin iqtisadi böhranı. Dövlət inhisarçı kapitalizmi. İqtisadiyyatın hərbi relslər üzərinə keçirilməsi. "Avtarkiya" siyasəti. İtaliya faşizmdən azad edildikdən sonra. Respublika elan edilməsi. İtaliya respublikası konstitusiyasının xüsusiyyətləri və əhəmiyyəti. İitaliya ilə sülh müqaviləsi. 40-cı illərin ikinici yarısı - 50-ci illərdə İtaliyanın xarici siyasəti. 50-ci illərdə İtaliyanın iqtisadi inkişafı. 1960-cı ilin iyul hadisələri və "sol mərkəz" siyasətinə keçilməsi. 70-ci illərdə ölkədə siyasi vəziyyət. 1976-cı il parlament seçkiləri. İtaliyada partiya-siyasi mübarizə və "milli həmrəylik" siyasəti. 70-80-cı illərdə İitaliyanın sosial-iqtisadi inkişafı. 90-cı illərdə İtaliyanın sosial-iqtisadi inkişafı. 1992-ci il parlament seçkilərində XDP-nin qələbəsi. Ölkədə partiya-siyasi mübarizə. 1994-cü il parlament seçkiləri. 90-cı illərin ikinici yarısında İtaliyanın daxili siyasi vəziyyəti.

## FƏSİL 3.

## ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİ TARİXİ FƏNNİ ÜZRƏ

**Yaponiya.** Yaponiya haqqında ümumi məlumat. XIX əsrin ortalarında Yaponiyanın sosial-iqtisadi vəziyyəti. İnqilabi şərait. Meyci inqilabının səbəbləri, başlanması, gedişi, nəticələri. Meyci inqilabından sonra həyata keçirilən tədbirlər. Yaponiya XX əsrin birinci yarısında. İkinci Dünya müharibəsi və Yaponiya. İşğal rejimi dövrü. Yaponiyada XX əsrin 60-80-ci illərində iqtisadi inkişafın səbəbləri, istiqamətləri və nəticələri. Müasir Yaponiyanın siyasi və iqtisadi vəziyyəti.

**Çin.** Çin haqqında ümumi məlumat. XX əsrin əvvəllərində Çinin sosial-iqtisadi vəziyyəti. Sun Yatsen və demokratik hərəkat. Sinxay inqilabının səbəbləri, başlanması, gedişi, nəticələri. Çin XX əsrin 20-30-cu illərində. İkinci Dünya müharibəsi və Çin. 1946-1949-cu ullər vətəndaş müharibəsi və nəticələri. Çin Xalq Respublikasının yaranması. XX əsrin 50-70-ci illərində ÇXR-ın siyasi və iqtisadi vəziyyəti. Den Syaopin və "Dörd modernləşdirilmə xətti". "Kəmər və yol" təşəbbüsü və onun mahiyyəti. Müasir ÇXR-ın siyasi və iqtisadi vəziyyəti.

**Koreya.** Koreya haqqında ümumi məlumat. İkinci Dünya müharibəsindən sonra Koreyanın parçalanması. Koreya müharibəsi və nəticələri. Koreya Xalq Demokratik Respublikasının siyasi və iqtisadi vəziyyəti. KXDR-in nüvə proqramı və onun beynəlxalq münasibətlər sisteminə təsiri. KXDR-in nüvə sınaqlarıə Beynəlxalq birliyin, o cümlədən ABŞ, Yaponiya, ÇXR, Cənubi Koreyanın KXDR-in nüvə proqramına münasibəti. Müasir KXDR-in siyasi və iqtisadi vəziyyəti.

**Monqolustan.** Monqolustan və monqollar haqqında ümumi məlumat. Monqol imperiyasının yaranması. Çingiz xan. Monqol «Ana Yasa»sı və onun mahiyyəti. Monqol imperiyasının idarəçilik strukturunun və ordu təşkilinin əsas xüsusiyyətləri. Aqrar münasibətlər. Monqolların ilk hərbi yürüşləri və onların nəticələri. Monqolların hərbi uğurlarının səbəbləri. İstila olunmuş ərazilərə münasibətdə yeridilən siyasət. «Örüş siyasəti». Batı xanın Qərb yürüşü və onun nəticələri. Cormoqon noyonun yürüşü və

onun nəticələri. Hulaku xan tərəfindən beşinci ulusun yaradılması. Hubilay xan və Yuan imperiyası.

**Hindistan.** Hindistan və Pakistan haqqında ümumi məlumat. İkinci dünya müharibəsindən sonra Hindistanın sosial-iqtisadi və siyasi vəziyyəti. Milli-azadlıq hərəkatının yeni vüsət alması. Mauntbetten planı və onun mahiyyəti. Hindistan İttifaqı və Pakistan dominionlarının meydana gəlməsi. Hindistan 1950-1960-cı illərdə.1950-ci il Konstitusiyası və Hindistanın parlamentli respublika elan edilməsi. Nehru xətti və onun mahiyyəti. «Hind sosializmi» konsepsiyası və onun mahiyyəti. Pakistan 1956-1969-cu illərdə.Respublikanın elan edilməsi. Kəşmir probleminin meydana gəlməsi. Çinlə sərhəd münaqişələri. Hindistan-Pakistan münaqişələri. Daşkənd Bəyannaməsi. 1971-ci ildə Şərqi Pakistanda siyasi gərginlik: yeni Pakistan-Hindistan müharibəsi və nəticələri. XXI əsrin əvvəllərində Pakistanın sosial-iqtisadi və siyasi vəziyyəti. Müasir dövrdə Pakistan-Azərbaycan münasibətləri.

**Hind-Çin və Cənub-Şərqi Asiya ölkələri.** Hind-Çin və Cənub-Şərqi Asiya ölkələri haqqında ümumi məlumat. Hind-Çin və Cənub-Şərqi Asiya ölkələrinin siyasi tarixi. İkinci dünya müharibəsindən sonra regonun siyasi vəziyyəti. Bandunq konfransı. ASEAN-ın yaranması: üzvləri, strukturu, proqramı. Bali və Manila memorandumları. ASEAN təşkilatının prioritet hədəfləri, nümayəndəlikləri. Cənubi Çin dənizi problemi və mahiyyəti.

**Əfqanıstan.** Əfqanıstan haqqında ümumi məlumat. Dürranilər dövlətinin yaranması. XVIII əsrin II yarısında Dürranilər dövlətinin sosial-iqtisadi quruluşu. Əhməd şahın işğalçı müharibələri. Əhməd şahın Böyük Moğol imperiyası ilə müharibələri. Panipat döyüşü. Əhməd şahın ölümündən sonra Əfqanıstanda siyasi vəziyyət. Dürranilər dövlətinin dağılması və siyasi pərakəndəlik. XIX əsrin əvvəllərində İngiltərə - Əfqanıstan münasibətləri. Müasir Əfqanıstan tarixində Talibanın yeri və rolu.

**İran.** İranın haqqında ümumi məlumat. İran ərazisində feodal münasibətlərinin meydana gəlməsi. Sasanilər dövlətinin yaranması. I Ərdəşirin xarici siyasəti. III-IVəsrlərdə Sasani-Roma münasibətləri. I Qubadın daxili və xarici siyasəti. I Xosrovun hakimiyyətdə möhkəmlənməsi. VI əsrdə Sasanilərin xarici siyasəti. Sasani-Bizans, Sasani-Çin, Sasani-türk münasibətləri. İslam inqilabı ərəfəsində İranın daxili və beynəlxalq vəziyyəti. 1978-1979-cu illər inqilabının səbəbləri, xarakteri, başlanması, gedişi. İslam inqilabına beynəlxalq münasibət.1979-cu il fevral hadisələri və monarxiyanın süqutu. İslam respublikasının yaradılması. Konstitusiyanın qəbulu. İran İslam Respublikasının daxili və xarici siyasətinin əsas istiqamətləri. İİR-in Qərblə münasibətləri: nüvə problem.

**Türkiyə.** Türkiyə haqqında ümumi məlumat. XV əsrdə Osmanlı imperiyasının daxili və beynəlxalq vəziyyəti. Dövlət quruluşu. Ordu. Ərəb ölkələrinin, o cümlədən Məğrib ölkələrinin Osmanlılar tərəfindən fəthi. Osmanlıların Avropa siyasəti. Macarıstanın işğalının başa çatdırılması. Avstriya ilə müharibə və onun nəticəsi. Kapitulyasiyalar və onun mahiyyəti. XVI əsrin ikinci yarısında Osmanlı-Rusiya münasibətləri. Həştərxan səfəri. Müqəddəs İttifaq ilə müharibə. Türkiyə Respublikasının inkişafının əsas istiqamətləri. “Kamalçılıq” və onun mahiyyəti. Etatizm siyasəti və onun

mahiyyəti. Təhsil, səhiyyə, ordu, məişət və sairə sahələrdə islahatlar. XX əsr Türkiyə tarixində hərbi çevrilişlər. Türkiyə AKP-nin hakimiyyəti illərində.

**Ərəb ölkələri və İsrail.** Yaxın və Orta Şərq ölkələri haqqında ümumi məlumat. İslam dininin meydana gəlməsi və onun sosial mahiyyəti. Ərəb müsəlman dövlətinin yaranması. Ərəb işğallarının birinci mərhələsinin başa çatması və onun nəticələri. İşğal olunmuş ölkələrin ictimai-siyasi quruluşu, onların idarəedilməsi xüsusiyyətləri. Torpaq mülkiyyəti formaları. Əməvilərxilafəti. Abbasilərxilafəti. Yaxın Şərq böhranının yaranmasının ilkin şərtləri. Fələstin problemi və onun həlli. BMT-nin İsrail və Fələstin dövlətlərinin yaradılmasına dair qətnaməsi. 1948-1949-cu illərdə ərəb-İsrail müharibəsi və onun nəticələri. "Süveyş böhranı" və onun nəticələri. Yaxın və Orta Şərqdə qaçqınlar problemi: yaranması, həlli yolları. Fələstin Azadlıq Təşkilatının (FAT) və Fələstin Azadlıq Ordusunun (FAO) yaranması və fəaliyyəti. 1967–ci il "Altı günlük müharibə" və Yaxın Şərq böhranının daha da dərinləşməsi. 1973-cü il ərəb-İsrail müharibəsi və nəticələri. Kemp-Devid müqaviləsi. Prinsiplər Bəyənnaməsi və onun mahiyyəti. Cenevrə sazişi. "Yol xəritəsi". FAT ilə İsrail arasında imzalanmış Oslo müqaviləsi. "Torpaq əvəzinə sülh" prinsipi və onun mahiyyəti. Fələstin muxtariyyətinin yaranması. "Ərəb baharı" və Yaxın Şərq böhranının daha da dərinləşməsi. İŞİD problemi. Suriya münaqişəsi: səbəb və nəticələri.

**Afrika ölkələri.** İkinci Dünya müharibəsindən sonra Afrika xalqlarının istiqlaliyyət uğrunda mübarizəsi. Mançestrdə V Panafrika konqresi və onun qərarları. Afrikada ABŞ-ın iqtisadi və siyasi nüfuzunun artması. Azadlıq hərəkatının yüksəlişinə beynəlxalq əlverişli şəraitin yaranması. Kütləvi ictimai-siyasi təşkilatların meydana gəlməsi. Antimüstəmləkə siyasətinin genişlənməsi. Mübarizənin xarakter və metodları. Müstəmləkəçi dövlətlərin taktikası. Afrika xalqlarının müstəmləkə əsarətindən azad olmasının mərhələləri. «Afrika ili». XXI əsrdə Afrika uğrunda böyük dövlətlərin rəqabətinin güclənməsi. Afrikanın dekolonizasiyasında Azərbaycan Respublikasının mövqeyi.

**FƏSİL 4.**

## QAFQAZ TARİXİ FƏNNİ ÜZRƏ

**Qafqaz ən qədim və qədim çağlarda.** Qafqaz ərazisində ən qədim insan izləri. Gürcü və alman alimlərinin son tədqiqatları. Azıxantrop. Qafqazın qədim dövlətləri (b.e.ə.IV əsrin sonu - III əsr) Qafqazın yerli və gəlmə sakinləri. Ilkin tayfa birlikləri və dövlət qurumları. E.ə. III-II minilliklərdə Qafqazın cənubundakı siyasi birlikləri. Urartu (Biaynili) və onun sakinləri. Kimmer, Iskit (skif) yürüşləri. Qafqazın Qara dəniz sahili boyu ərazisində yaşamış tayfalar. Meotlar. Sindlər. Kolxida. Yunan məskənləri. Midiya və Iranın Cənubi Qafqazda ağalığı. Makedoniyalı Isgəndərin Şərqə hərbi yürüşü və onun Qafqaz üçün nəticələri. Atropatena, Albaniya, Iberiya (Kartli), Kolxida. "Böyük Ermənistan" əfsanəsi: dəlillər və sübutlar.Erməni şahlarının işğalçılıq siyasəti. Qafqazlıların Parfiya və Qədim Romaya qarşı mübarizəsi. Alan tayfalarının Cənubi Qafqaza yürüşləri. Qafqazın qədim dövlət və cəmiyyətlərinin ictimai quruluşu və xüsusiyyətləri.

**Qafqaz orta əsrlərdə.** Feodal münasibətlərinin yaranması və xüsusiyyətləri. Qafqaz uğrunda Bizans və Sasani müharibələri və yekunları. Sasani ağalığı dövründə vergi və mükəlləfiyyətlər. Qafqazın etnik simasının formalaşmağa başlaması. Hun yürüşləri və Qafqaz. Xristianlığın yayılması. Qafqaz uğrunda Sasani-Bizans rəqabətinin kəskinləşməsi. Xəzər xaqanlığının yaranması. Cənubi Qafqaza Xəzər yürüşləri. Qafqaza ilk ərəb yürüşləri və ona qarşı mübarizə. Qafqaz uğrunda Ərəb-Bizans-Xəzər mübarizəsinin güclənməsi və onların qafqazlılar üçün faciəli nəticələri. Dağıstanda və

Cənubi Qafqazda ərəb ailələrinin yerləşdirilməsi. Islamın yayılması. Ərəb ağalığına və feodal zülmünə qarşı xalq çıxışları.

IX əsrin ortaları və ikinci yarısında yarımmüstəqil və müstəqil feodal dövlətlərinin yaranması. Qafqazda öz təsirini gücləndirmək uğrunda Bizans imperatorlarının gürcü və erməni feodalları ilə yaxınlaşmaq cəhdləri. Gürcü dövlətləri. Tao-Klarceti, Kaxeti, Abxaz knyazlığı. Baqratilər sülaləsi. Gürcüstanın birləşdirilməsi. Erməni feodallıqları. Bizansın erməni feodallıqlarını özünə tabe etməsi. IX əsrin ikinci yarısı - X əsrdə Qafqazın şimalında vəziyyət. Alan dövləti (Alaniya). Şimali Qafqazda xristianlığın yayılması. Rusların (slavyanların) Qafqaza yürüşləri və onun fəlakətli nəticələri. Səlcuq sultanlarının Cənubi Qafqazı özlərinə tabe etmələri. Səlcuq türklərinin Qafqaza axınlarının nəticələri. Gürcüstanın yenidən güclənməsi. IV Qurucu David. XII-XIII əsrin ilk onilliklərində alanlar və qıpçaqlar. Qıpçaq xaqanlığı.

Monqolların Qafqaza yürüşləri. Cəlaləddinin Qafqaza hücumu. Atabəylər dövlətinin süqutu. Monqolların Qafqaza yeni yürüşü. Gürcüstanın və erməni feodal mülklərinin ələ keçirilməsi. Batı xanın Şərqi Avropaya və Şimali Qafqaza yürüşü. Qıpçaqların və alanların tabe edilməsi. Qızıl Ordunun yaranması. Hülakülər (Elxanilər) dövlətinin yaranması. Qafqaz uğrunda Elxani-Qızıl Ordu müharibələri və nəticələri. Cənubi Qafqazda cəlairilərin ağalığı. Toxtamışın və Teymurun Cənubi Qafqaza yürüşləri və onların yerli əhali üçün acınacaqlı yekunları. Gürcüstanda mərkəzi hakimiyyəti möhkəmləndirmək tədbirləri. Qafqazın cənubunda və mərkəz hissəsində ağalıq uğrunda Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının rəqabəti. Qafqazın Ağqoyunlu və Osmanlı dövlətləri arasında rəqabət meydanına çevrilməsi Şimali Qafqaz xalqlarının müstəqillik uğrunda mübarizəsi. Şimali Qafqaz xalqlarının Gürcüstan və Azərbaycanla qarşılıqlı əlaqələri. Dağıstanda feodallıqlar. Tarku şamxallığının güclənməsi.

Səfəvi dövlətinin yaranması. Səfəvi şahlarının Qafqazda ərazi işğalları. Qafqaz uğrunda Səfəvi-Osmanlı müharibələrinin başlanması. Amasiya sülhü. Qafqazın qərb hissəsində Osmanlı dövlətinin möhkəmlənməsi. Xristian əhaliyə münasibət. XVI əsrin 70-80-ci illərində hərbi əməliyyatların gedişi. Istanbul sülhü. Qafqazda Osmanlı dövlətinin möhkəmlənmək cəhdləri. Qafqazla Avropa arasında ticarətdə Xəzər-Volqa su yolundan istifadə. Şimali Qafqazın feodal qurumları. Qafqaz XVI əsrin sonu – XVII əsrin başlanğıcında. Osmanlı ağalığına qarşı mübarizə. Qafqazda köçürmə siyasəti. «Böyük sürgün». XVII əsrin əvvəllərində Qafqaz uğrunda Səfəvi-Osmanlı müharibələri. G.Saakadzenin başçılığı ilə üsyan. Qəsri-Şirin (Zahab) sülhü. Qafqazın xarici ticarət əlaqələrinin zəifləməsi. Beynəlxalq ipək ticarəti əməliyyatları miqyasının kiçilməsi. Təsərrüfatda böhran meylləri. Səfəvi-Osmanlı müharibələrinin Qafqazın mədəni həyatına təsiri. Rusiyanın Şimali Qafqaza soxulmaq cəhdləri.

**Qafqaz yeni və ən yeni dövrdə.** XVIII yüzilliyin başlanğıcında Qafqaz beynəlxalq münasibətlər sistemində. Feodal zülmünə qarşı xalq çıxışları. Şirvanda və Dağıstanda üsyanlar. Rusiyanın Şimali Qafqazda möhkəmlənmək cəhdləri. I Pyotrun Xəzərsahili vilayətlərə işğalçılıq yürüşü. Xəzərsahili torpaqların Rusiyaya birləşdirilməsi. Qafqazı bölüşdürmək uğrunda Osmanlı-Rusiya mübarizəsi. Nadirin başçılığı altında yerli əhalinin yadelli işğalçılara qarşı mübarizəsi. Nadir şahın Qafqazda ağalığı. Inzibati idarəçilikdə dəyişikliklər.

XVIII əsrin ortaları və ikinci yarısında müstəqil dövlətlərin və feodallıqların yaranması və qarşılıqlı münasibətləri. Rusiyanın Şimali Qafqazda möhkəmlənmək sahəsində yeni addımları. Qafqaz xəttinin yaradılması. Şimali Qafqazın düzənlik hissəsində rus kəndlilərinin və kazakların kütləvi yerləşdirilməsi. Şeyx Mənsurun başçılığı ilə milli-azadlıq müharibəsi. XVIII əsrin 60-80-ci illərində Rusiyanın Qafqazın cənubuna və mərkəzinə soxulmaq cəhdləri. Georgiyevsk müqaviləsi. Ermənilərin

Qafqazda xristian dövləti yaratmaq cəhdlərinin güclənməsi. XIX əsrin başlanğıcında Rusiyanın Cənubi Qafqazda işğallara başlaması. Birinci Rusiya-Iran müharibəsi. 1806-1812-ci illər Rusiya-Osmanlı müharibəsi. Gürcüstanda Rusiyanın müstəmləkə rejimi yaratması. Gürcü kilsəsinin müstəqilliyinə son qoyulması. Gürcüstan xristianlarının Rusiya Sinoduna tabe edilməsi. Buxarest sülhünün Qafqaz üzrə yekunları. Gülüstan sülhü. Rusiyanın Xəzər hövzəsində hegemonluğu. Komendant idarə üsulu. Ikinci Rusiya-Iran müharibəsinin başlanması. Rus ordusunun Cənubi Qafqazda yeni işğalları. Türkmənçay sülhü. «Erməni vilayəti»nin yaradılması. Ermənilərin Cənubi Qafqaza köçürülməsi və Azərbaycan torpaqlarında yerləşdirilməsi. 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi. Rusiyanın Qərbi Qafqazda möhkəmlənməsi.

Şimali Qafqazın düzənlik hissələrində rus əhalisinin məskunlaşdırılması. Yerli xalqlara qarşı general A.Yermolovun zorakılıq aktları. Dağlı xalqların məhsuldar torpaqlardan məhrum edilməsi. Qafqaz müharibəsinin başlanması və əsas mərhələləri. Şimali Qafqazda müridizmin yayılması. Qazi Məhəmmədin başçılığı ilə üsyançı ordunun əsas döyüşləri. Həmzət bəyin imam seçilməsi. Şeyx Şamilin başçılığı ilə üsyançı ordunun uğurları. Imamət. Dövlət işlərində şəriət qaydalarının tətbiqi. Məhəmməd Əminin başçılığı ilə çərkəz və adıqların Rusiyaya qarşı azadlıq mübarizəsi. Şimali Qafqazda müstəmləkə inzibati idarəçiliyi. Dağlı xalqların Osmanlı imperiyasına köçürülməsi. «Böyük mühacirlik».

Cənubi Qafqazda kəndli islahatına hazırlıq tədbirləri. Kutais quberniyasında və Abxaziyada kəndli islahatlarının keçirilməsi və fərqli xüsusiyyətləri. Bakı, Gəncə və Irəvan quberniyalarında kəndli islahatı keçirilməsi. Qafqazda aqrar məsələnin xarakterik xüsusiyyətləri. Dövlət kəndlilərinin torpaq məsələsi. 1 may 1900-cü il qanununun mahiyyəti. 1912-1913-cü illərin aqrar qanunları. Müvəqqəti mükəlləfiyyətliyin ləğvi Məhkəmə islahatı. Qafqazda məhkəmə islahatının məhdud cəhətləri. Şəhər islahatı. Şəhər dumaları. Hərbi islahat. Türk-müsəlman əhalinin hərbi mükəlləfiyyətə cəlb edilməməsi səbəbləri. Şimali Qafqazın dağlı xalqlarından irrequlyar hərbi hissələrin formalaşdırılması. Inzibati idarəçilikdə dəyişikliklər. Yeni inzibati bölgü. Qafqaz canişinliyinin ləğvi. Əks-islahatlar. Yerli xalqlara münasibətin sərtləşməsi.

Qafqaz xalqlarında milli şüurun inkişafı. Ermənilərə qatı millətçilik hisslərinin aşılanması. Millətlərin formalaşması. San-Stefano sülhü. Berlin konqresinin Qafqazda sərhədlər və ermənilərlə bağlı qərarları. Erməni millətçi təşkilatlarının yaranması. Qnçak partiyasının pozuculuq fəaliyyəti. Daşnaksütyun partiyasının proqram sənədlərində mübarizə metodları. Daşnakların terror aktları.

Milli burjuaziyanın fəallaşması. Çarizmin milli-müstəmləkəçilik siyasətinə qarşı milli-azadlıq mübarizəsi. Milli təşkilat və partiyaların yaranması. Mədəni-milli muxtariyyət uğrunda çıxışlar. Gürcü menşevikləri. Erməni qatı millətçi təşkilatlarının fəaliyyəti. 1905-1907-ci illər inqilabı dövründə milli-azadlıq mübarizəsi. Çarizmin milli ədavəti qızışdırması. Erməni millətçilərinin azərbaycanlılara qarşı qətl və qarətləri. Azərbaycanlıların müdafiə tədbirləri. Qafqazlı nümayəndələrin Rusiya Dövlət Dumalarında iştirakı. Duma iclaslarında Qafqazla bağlı məsələlərin müzakirəsi.

Qafqaz Birinci dünya müharibəsi iştirakçılarının planlarında. Erməni millətçilərinin Osmanlı imperiyasının Şərq vilayətləri hesabına erməni dövləti yaratmaq planları. Sarıqamış əməliyyatı. Acarların rus ordusu tərəfindən kütləvi məhv edilməsi. Dinc əhaliyə qarşı erməni yaraqlılarının qətl və qarətləri. Osmanlı dövlətinin ordunun təchizatını təmin etmək və dinc əhalini qorumaq tədbirləri. Uydurma «erməni soyqırımı» məsələsi. Fevral inqilabından sonra Qafqazda vəziyyət. Xüsusi Cənubi Qafqaz Komitəsinin yaradılması. Qafqazda milli hərəkatın güclənməsi. Müvəqqəti hökumətin Qafqazda müstəmləkəçilik siyasəti. Erməni hərbi birliklərinin müsəlman-türk əhalisinə qarşı qətl və qarətlərin kütləvi hal alması. Qafqazda siyasi partiyaların və milli təşkilatların leqal

fəaliyyətə keçmələri. Milli Şuraların xalq hərəkatına rəhbərlik etmək uğrunda mübarizəsi. Sovetlərin yaranması. Oktyabr çevrilişindən sonra Qafqazda ictimai-siyasi vəziyyətin ağırlaşması. Cənubi Qafqaz Komissarlığının yaradılması və ilk tədbirləri. Milli fraksiyaların formalaşması. Ərzincan barışığı. Cəbhədən çəkilən rus hərbçilərinin özbaşınalıqları. Erməni və gürcü silahlı qüvvələrinin formalaşdırılması. Brest-Litovsk sülh müqaviləsinin Qafqazla bağlı şərtləri. Trabzon sülh konfransı. Qafqazın şərqində daşnak-bolşevik qüvvələrinin Azərbaycan əhalisinə qarşı soyqırımları. Milli fraksiyalar arasında ixtilaflar.Batum sülh konfransı. Cənubi Qafqaz nümayəndə heyətinin üzvləri arasında fikir ayrılıqları.

Qafqazda müstəqil dövlətlərin yaranması. Gənc Qafqaz respublikalarının Osmanlı dövləti ilə müqavilələri. Alman hərbi qüvvəsinin Gürcüstana gəlməsi. Gürcüstan-Almaniya əməkdaşlığı. Osmanlı dövlətinin Azərbaycana və Dağlı Respublikasına hərbi yardımı. Qafqazın şərq hissəsinin erməni daşnak-bolşevik qüvvələrindən və rus-kazak hərbçilərindən təmizlənməsi. Milli dövlət quruculuğu. Hökumət və parlamentlər yaradılması. Əsas qanunvericilik aktları və hökumət sərəncamları. Iqtisadiyyat və maliyyə sahəsində tədbirlər. Aqrar məsələnin həlli ətrafında müzakirələr. Qafqaz bonu və milli pullar buraxılması. Milli bank sisteminin yaradılması. Qafqaz respublikalarının qarşılıqlı münasibətlərində ərazi mübahisələri. Ermənistan Respublikasının qonşularına qarşı ərazi iddiaları. Ermənistan-Gürcüstan, Ermənistan-Azərbaycan münaqişələri. Qafqaz nümayəndələrinin Paris sülh konfransında iştirakı. Şimali Qafqazda Denikinin Rusiya ağalığını bərpa etməsi. Dağlı Respublikasına hərbi təcavüz. Denikin təhlükəsinə qarşı Azərbaycan-Gürcüstan əməkdaşlığı. Qafqaza Sovet Rusiyasının təcavüzü. XI Qırmızı Ordunun Dağıstanı və Azərbaycanı işğal etməsi. XI Qırmızı Ordunun Ermənistanın və Gürcüstanın müstəqilliyinə son qoyması.

Qafqaz xalqlarının milli-azadlıq mübarizəsinin başlanması. Xalq cəbhələrinin yaranması. Sovet rəhbərliyinin Qafqaz xalqlarını itaətdə saxlamaq üçün atdığı addımlar. Milli münaqişələrin qızışdırılması.Tbilisi, Bakı qırğınları. Dağlıq Qarabağ münaqişəsi. Azərbaycanlıların Ermənistandan qovulması. Azərbaycanlılara qarşı terror aktları. Cənubi Qafqaz respublikalarının müstəqilliklərini bərpa etmələri. Qafqaz respublikalarının beynəlxalq və regional təşkilatlara üzv olmaları. Beynəlxalq birliyin Qafqazda sülh və sabitlik yaradılması sahəsində addımları. Cənubi Osetiya, Abxaziya münaqişələrini həll etmək uğrunda mübarizə. E.Şevardnadzenin Gürcüstanda sabitlik yaratmaq sahəsində fəaliyyəti. Gürcüstanda «Qızıl gül» inqilabı. Ölkədə korrupsiyaya qarşı mübarizə. Rus qoşunlarının Gürcüstandan çıxarılması. Ermənistanda qatı millətçi qüvvələrin hakimiyyətə gəlməsi. L.Ter-Petrosyan. Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü. Dağlıq Qarabağın və ətraf rayonların işğal edilməsi. Rusiyanın, Iranın, ABŞ-ın və Avropa Birliyinin Ermənistana yardımları. Ermənilərin ölkəni kütləvi tərk etmələri. Şimali Qafqazda milli-azadlıq mübarizəsinə qarşı Rusiya Federasiyasının cəza tədbirləri. Çeçenistanın müstəqilliyini qorumaq uğrunda mübarizəsi. Dağıstanda milli hərəkat. Islamçı qüvvələrin fəallaşması. Qaraçay-Çərkəzdə milli qüvvələrin fəallaşması. Inquş-Osetin konflikti. Inquşların öz yurdlarına qaytarılması məsələsi. Qafqazda sülh və sabitlik uğrunda mübarizənin ilkin yekunları. Azərbaycanın Qafqazda liderlik imkanlarının artması. H.Əliyevin Qafqaz respublikaları arasında əməkdaşlığı genişləndirmək təşəbbüsləri. Azərbaycanın Gürcüstan və Şimali Qafqaz respublikaları ilə əlaqələri. «Qafqaz evi» məsələsi. İ.Əliyevin Qafqazda münaqişələrin həlli sahəsində fəaliyyəti. Qafqaz respublikalarının beynəlxalq iqtisadi, nəqliyyat-kommunikasiya layihələrində iştirakı. TRASEKA, TASIS proqramları. Xəzər dənizinin hövzəsinin enerji ehtiyatlarının dünya bazarına çıxarılmasında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əhəmiyyəti. Müasir dövrdə Qafqazdakı münaqişələrin həlli perspektivləri. Qafqaz respublikalarının dünya birliyinə inteqrasiyası sahəsində əsas uğurları və vəzifələri.

**FƏSİL 5.**

## SLAVYAN ÖLKƏLƏRİ TARİXİ FƏNNİ ÜZRƏ

**Slavyan ölkələri feodalizm dövründə.** Slavyan ölkələrində feodal münasibətlərinin yaranmasının sosial-iqtisadi və siyasi səbəbləri. Təsərrüfatın inkişafı, əkinçilik və sənətkarlıq. Ticarətin inkişafı. "Xalqların böyük köçü" və slavyan xalqları. Slavyanların Bizans imperiyasına yürüşləri. Slavyanların Bizans imperiyasının ərazisində məskünlaşması. Birinci Bolqar çarlığı. Çarlığın ilk xanları. Çarlığın inzibati-ərazi bölgüsü. Xristianlığın qəbulu. Bolqarıstanda Boqomil hərəkatı. Bizans və Bolqarıstan qarşıdurması. Birinci Bolqar çarlığı Bizans imperiyasının tərkibində. Şərqi slavyanlarda dövlətçilik. Kiyev feodal dövlətinin yaranması. "Norman nəzəriyyəsi". Feodal və kəndli təbəqəsinin formalaşması. Kəndli kateqoriyaları. "Ruskaya pravda". Knyaz Oleqın və İqorun işğalçı müharibələri "Bərdə faciyəsi". Knyaz Svyatoslavın dövründə Kiyev dövlətinin xarici siyasəti. Slavyan ölkələrində mərkəzləşdirilmiş dövlətin yaranmasının sosial-iqtisadi və siyasi səbəbləri. Feodal münasibətlərin inkişafı, torpaq mülkiyyətinin formalaşması, sənətkarlıq, ticarət. İvan Kalitanın siyasəti. Qızıl Orda əsarətinə qarşı mübarizə və mərkəzləşmə prosesi. XV əsrdə mərkəzləşmə siyasətinin yeni mərhələsi. III İvanın siyasəti. Novqorod torpaqlarının birləşdirilməsi. Mərkəzləşmə prosesi III Vasilinin dövründə. Mərkəzləşdirilmiş Rus dövlətinin möhkəmlənməsi. XV əsrdə Çexiyanın sosial-iqtisadi və siyasi vəziyyəti. Xalq çıxışları. Yan Qus və onun nəzəriyyəsi. Çexiyada Qusçuluq hərəkatının başlanması və onun nəticələri. Reç Pospolita XVIII əsrin ikinci yarısında. İqtisadi və siyasi böhran. Reç Pospolitanın bölüşdürülməsində iştirak edən ölkələr. Reç Pospolitanın birinci, ikinci və üçünçü bölüşdürülməsi. T.Kostyuşko üsyanı.

**Slavyan ölkələri XIX əsr - XX əsrin əvvəllərində.** Kapitalist münasibətlərinin formalaşması. Slavyan ölkələrində kapitalist münasibətlərinin formalaşmasının xüsusiyyətləri. Sənaye çevrilişi və onun əsas mərhələləri. Rusiyada təhkimçilik hüququnun ləğvi. XIX əsrin 60-70-ci illərində Rusiyada burjua islahatları. XIX əsrin ikinci yarısında beynəlxalq münasibətlət və slavyan ölkələri. Müstəqil slavyan dövlətlərinin yaranması və onların beynəlxalq münasibətlərdə yeri. Boqarıstanın vahid dövlətə çevrilməsi. Slavyan dövlətləri arasında iqtisadi və siyasi əlaqələr. XX əsrin əvvəllərində Slavyan ölkələrinin sosial-iqtisadi və siyasi vəziyyəti. İqtisadi inkişafın yeni mərhələləri. XX əsrin əvvəllərində beynəlxalq münasibətlər və slavyan ölkələri. "Balkan ittifaqı". Balkan müharibələri. Slavyan ölkələri Birinci dünya müharibəsi ərəfəsində. Hərbi blokların yaranması. Slavyan ölkələrinin Birinci dünya müharibəsində iştirakı. Birinci dünya müharibəsinin başa çatması və müstəqil slavyan dövlətlərinin yaranması.

**Slavyan ölkələri XX-XXI əsrin əvvəllərində.** Birinci dünya müharibəsinin başa çatması və bəşər tarixinin yeni mərhələsinin başlanması. Paris sülhü. Rusiya imperiyasının dağılması və sovet hakimiyyətinin qurulması. SSRİ-nin yaranması. Yeni iqtisadi siyasət və onun nəticələri. SSRİ-də siyasi proseslər. SSRİ İkinci dünya müharibəsi dövründə. İkinci dünya müharibəsindən sonra beynəlxalq aləmdə iki sistemin yaranması. Onların arasında iqtisadi və siyasi rəqabət. XX əsrin 50-60-cı illərində sosialist sisteminin böhranı. Macarıstan hadisələri. Çexoslovakiyada "Məxməri" inqilab. Sosialist sisteminin dağılması və slavyan ölkələrinin müstəqillik əldə etməsi. Rusiya Federasiyası-daxili və xarici siyasəti. Çexiya və Slovakiya müstəqillik yolunda. Bolqarıstanın siyasi və iqtisadi vəziyyəti. Yuqoslaviya Federasiyasının dağılması və yeni müstəqil dövlətlərin yaranması. Makedoniya, Çernoqoriya Respublikası. Bosniya və Herstsoqovina müstəqillik yolunda, vətəndaş müharibəsi. Müstəqil Ukrayna və Belorusiya dövlətlərinin yaranması. Krım məsələsinin Ukrayna-Rusiya münasibətlərinə təsiri.

## FƏSİL 6.

## TÜRK XALQLARI TARİXİ FƏNNİ ÜZRƏ

**İxtisas ölkəsi (Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası) haqda ümumi məlumat.** *İxtisas ölkəsinin* dövlət quruluşunun əsasları (respublikanın müstəqilliyinin elan edildiyi tarix, dövlət rəmzləri, milli dövlət quruculuğu ideologiyası, idarəçilik forması). Fiziki və siyasi coğrafiyası (ərazisi, quru və su sərhədləri, qonşu olduğu dövlətlər). Demoqrafik və sosial-mədəni vəziyyəti (əhalisi, artım dinamikası, etnik tərkibi, dini-konfessional vəziyyət). Mədəni-mənəvi irsi (dil, din, milli bayramlar, milli geyim, mətbəx və s.). İqtisadi ponetsialı və təbii resursları (təbii zənginlikləri, iqtisadiyyatın aparıcı sahələri). Strateji mövqeyi (iştirakçısı olduğu regional və beynəlxalq nəqliyyat-logistika layihələri baxımından əhəmiyyəti). Hazırki daxili vəziyyəti (Türkiyədə 2015-ci il Gəzi hadisələri, 2016-cı il 15 Temmuz hadisələri; Qırğızıstanda müstəqillik illərində baş vermiş "rəngli inqilablar" (1999-2000-ci illərdə Batken hadisələri; 2005-ci il 24 mart "Tülpan inqilabı"*;* 10-13 iyun 2010-cu il Oş hadisələri); Özbəkistanda 13-15 may 2005-ci il Əndican hadisələri, prezident Ş.Mirzoyoyevin "Açıq qapı siyasəti" və 2022-ci il Qaraqalpakstan hadisələri; Qazaxıstanda 2022-ci ilin yanvar hadisələri, sonrakı dövrdə konstitusiya islahatları və s. – qeyd edilmiş hadisələrdən ixtisas ölkəsinə aid olanı seçib analitik təhlil etmək). Ordu quruculuğu. İxtisas ölkəsinin ərazisində xarici hərbi bazaların mövcudluğu məsələsi. İxtisas ölkəsinin beynəlxalq statusu: beynəlxalq və regional təşkilatlarda iştirakı. Təhlükəsizliyinə mövcud təhdidlər: aktual beynəlxalq mübahisələri və təhllükəsizlik prioritetləri.

**İxtisas ölkəsi (Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası) haqda tarixi arayış.** *Türkiyə türklərinin* anayurdu, etnik mənsubiyyəti. Tarixdə mövcud olmuş dövlətləri. Oğuz türklərinin Anadoluya gəlişi. Osmanlı dövləti (Devlet-i ʿAliyye-yi ʿOsmâniyye): yaranışdan süquta mərhələləri. Mərhələlərin xüsusiyyətləri. Böyük dövlətlərin siyasətində "Şərq məsələsi". XIX əsr – XX əsrin əvvəllərində "Osmanlını qurtarmaq" məqsədilə meydana çıxmış ideya-siyasi cərəyanlar (Osmanlıçılıq, İslamçılıq, Türkçülük, Qərbçilik, Adem-i Mərkəziyyət) və mahiyyətləri. Tənzimat dövrü islahatları, mahiyyəti. İctimai fikrin inkişafı. Konstitusiyanın qəbulu. Balkan müharibələri, Trablusqarp savaşı və bu müharibələrin Türkiyə üçün nəticələri. I Dünya müharibəsinin Türkiyə üzrə nəticələri. Milli Qurtuluş savaşı. Lozanna konfransı. Sultanlığın ləğvi. Cümhuriyyətin elan edilməsi. Xilafətin qaldırılması. XX əsrin 20-30-cu illərdə həyata keçirilmiş islahatlar. Kamalçılıq ideologiyası. Türkiyə II Dünya müharibəsi illərində. Türkiyənin demokratikləşmə təcrübəsi, çoxpartiyalı sistemə keçid. Soyuq müharibə illərində Türkiyənin daxili və xarici vəziyyəti. Hərbi çevrilişlər və çevriləşə cəhdlər. Türkiyə iqtisadiyyatının dünyaya açılması (iqtisadi möcüzə) yeni dünya düzəninə hazırlıq mərhələsi kimi. XX əsrin sonlarında yeni dünya düzəninin yaranması və Türkiyə xarici siyasətinin yeni hədəfləri.

*Qazax, qırğız, özbək və türkmənlərin* etnogenezi və qədim dövlətçilik ənənələri. İxtisas ölkəsi xalqının tarixində mövcud olmuş dövlətlər və imperiyalar. İxtisas ölkəsi xalqının İslamı qəbu etməsi. Böyük İpək Yolunun, ticarət yolları üzərində yerləşmənin ixtisas ölkəsinin tarixi baxımından əhəmiyyəti. İxtisas ölkəsinin dövlətçilik tarixində tənəzzül dövrü. İxtisas ölkəsinin xalqlarının Çar Rusiyasının tərkibinə qatılması, tarixşünaslıqda məsələyə münasibət (tərkibinə daxil olma, birləşdirmə, işğal, daha az bəla). Mərkəzi Asiyanın işğalı uğrunda Rusiya və İngiltərə arasında mübarizə ("Böyük oyun"). Rusiyanın işğal etdiyi türk-müsəlman bölgələrində müstəmləkəçilik siyasətinin əsas istiqamətləri. XIX əsrin sonu - XX əsrin əvvəllərində türk xalqlarının milli-azadlıq hərəkatında formalaşmış ictimai-siyasi cərəyanlar (islamçılıq, türkçülük, sosial-demokrat cərəyan). Milli ideologiya. XX əsrin əvvəllərində ixtisas ölkəsində müstəmləkə rejiminə qarşı hərəkatlar (cədidçilik, Korbaşı hərəkatı, Alaş Orda). İxtisas ölkəsinin xalqları I Dünya müharibəsi illərində. Rusiyada 1917-ci il hadisələrinin ixtisas ölkəsi xalqlarına

təsiri. Türk bölgələrinin Rusiya tərəfindən ikinci işğalı. İxtisas ölkəsi xalqları SSRİ-nin tərkibində. XX əsrin 20-30-cu illərində ixtisas ölkəsində milli dövlət quruculuğu prosesi, ictimai-siyasi, iqtisadi vəziyyət, mədəni həyat. Kütləvi repressiya siyasətinin ixtisas ölkəsi üzrə nəticələri. İxtisas ölkəsi II Dünya müharibəsi illərində. Mərkəzi hökumətin deportasiya siyasətinin ixtisas ölkəsinə təsiri. Dinc quruculuq illəri. Reabilitasiya siyasətinin ixtisas ölkəsinə təsiri. Repatrasiya hüququ almayan xalqlar. İxtisas ölkəsi SSRİ-də siyasi sisteminin mülayimləşməsi və durğunluq illərində. Qazaxıstanın SSRİ-nin kosmik tədqiqatlar və nüvə mərkəzinə çevrilməsi: Boykanur kosmodromu, Semipalatinsk poliqonu. Özbəkistan "SSRİ-nin Şərq vitrini" kimi. *SSRİ-nin dağılması və postsovet məkanda yaranmış müstəqil türk dövlətləri*. Mərkəzi Asiya M.Qorbaçovun «yenidənqurma» siyasəti dövründə. İqtisadi sahədə problemlər, həyata keçirilən iqtisadi islahatlar. Özbəkistanda siyasi vəziyyət, pambıq işi. Siyasi sahədə problemlər, millətlərarası münaqişələr. Alma-Ata hadisələri. Fərqanə hadisələri. Oş hadisələri. Ekoloji problemlər (Aral gölü problemi). Prezident idarəçiliyinə keçid. Dövlət suverenliklərinin elan edilməsi. SSRİ-də 19-21 avqust 1991-ci il dövlət çevrilişi cəhdi. Müstəqilliklərin elan edilməsi.

**İxtisas ölkəsinin (Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası) müasir inteqrasiya proseslərində iştirakı.** *Türkiyə Cümhuriyyəti.* Türkiyənin çoxvektorlu xarici siyasəti. Müasir inteqrasiya prosesində iştirakının mahiyyəti, məqsəd və vəzifələri, formaları (qlobal inteqrasiya, regional inteqrasiya, iqtisadi inteqrasiya, mədəni inteqrasiya). "Strateji muxtariyyət" konsepsiyası: qlobal inteqrasiya proseslərində iştirakla yanaşı (BMT, NATO, G20) özünün müstəqil hərbi-sənaye kompleksini qurmaq, xarici siyasət kursunu müəyyənləşdirmək iddiası. Qərbə inteqrasiya: AB ilə Gömrük İttifaqı və miqrasiya idarəçiliyi çərçivəsində əməkdaşlıq. Avrasiya məkanına inteqrasiya: Avrasiya ittifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlıq cəhdləri. Türkiyənin Türk dünyasıdaxili inteqrasiya proseslərində, türk dövlətləri ilə ikitərəfli münasibətlərdə müdafiə sənayesi sahəsində əməkdaşlıq çərçivəsində hərbi-texniki inteqrasiya, ortaq iqtisadi zolaqların yaradılması, həmçinin Türk Dövlətləri Təşkilatının tam hüquqlu beynəlxalq təşkilata çevrilmək istiqamətindəki fəaliyyətində yeri və rolu. İqtisadi, energetika və logistika sahəsində əməkdaşlıq: Qərb-Şərq enerji dəhlizi (TANAP) və Orta Dəhlizdə "enerji qovşağı" rolu. Böyük güclərarası mübarizənin Türkiyənin inteqrasiya proseslərində iştirakına təsiri. Türkiyənin inteqrasiya proseslərində iştirakı çərçivəsində yümşaq gücdəndən istifadə siyasəti.

*İxtisas ölkəsinin inteqrasiya proseslərində iştirakı*. İxtisas ölkəsinin beynəlxalq aləmin tamhüquqlu subyektinə çevrilməsi və inteqrasiya proseslərinə qoşulması. İnteqrasiya prosesində iştirakın istiqamətləri (qlobal inteqrasiya, regional inteqrasiya, iqtisadi inteqrasiya, mədəni inteqrasiya). Müasir inteqrasiya proseslərində iştirak ixtisas ölkəsinin xarici siyasətinin istiqamətlərindən biri kimi (Qazaxıstanın "Böyük çölün çoxvektorlu diplomatiyası", Qırğızıstanın "kiçik dövlətin böyük alyansları", Özbəkistanın "dünyaya açılma" siyasəti, Türkmənistanın "neytrallıq və enerji diplomatiyası"). Böyük güclərarası mübarizənin ixtisas ölkəsinin inteqrasiya proseslərində iştirakına təsiri. Rusiya faktoru (tarixi yaddaş, təhlükəsizlik bağları), Çin faktoru (İpək Yolu diplomatiyası), Yaponiya və Hindistan amili (alternativ və balans), İran amili (tarixi, mədəni yaddaş). İxtisas ölkəsinin Türk dünyasıdaxili inteqrasiya proseslərində yeri və rolu. İxtisas ölkəsinin inteqrasiya proseslərində iştirakının hazırki vəziyyəti: imkanlar və perspektivlər. İxtisas ölkəsinin inteqrasiya proseslərində iştirakı çərçivəsində yümşaq gücdən istifadə cəhdləri.

*İxtisas ölkəsinin müasir beynəlxalq və regional problemləri. Türkiyə Cümhuriyyəti.* Türkiyənin strateji mübarizə zonaları. Türkiyənin xarici siyasət kursunda "qonşularla 0

problem" prinsipindən "Mavi Vətən" və "strateji muxtariyyət" prinsiplərinə keçid: səbəbləri, böyük güclərin buna reaksiyası. Şərqi Aralıq və Egey dənizləri problemi: Yunanıstanla şelf sahəsi, eksklüziv iqtisadi zonalar, adaların silahsızlandırılması ilə bağlı mübahisələr. Kipr məsələsində "iki dövlət həll" modelinə keçid, enerji resurslarının bölüşdürülməsi problemi. Təhlükəsizlik və terrorizm təhdidi, Suriya və İraqın şimalında təhlükəsizlik dəhlizi yaratmaq cəhdləri, Zəngəzur dəhlizi və Şuşa Bəyannaməsi kontekstində Ermənistanla münasibətlərin normallaşdırılması prosesi. *Mərkəzi Asiyanın türk dövlətlərinin regional və beynəlxalq problemləri.* Mərkəzi Asiyanın türk dövlətləri arasında sərhəd və anklav problemləri. Fərqanə vadisində delimitasiya və demarkasiya prosesi, Qırğızıstan-Tacikistan sərhəd münaqişələri. "Su diplomatiyası" və transsərhəd çaylar: Amudərya və Sırdərya sularının bölüşdürülməsi, Əfqanıstanın Qoştəpə kanal layihəsinin regionun su təhlükəsizliyinə təsiri. Ekoloji və humanitar təhdidlər: Aral gölü faciəsinin fəsadları, ekoloji miqrasiya və deqradasiyaya uğramış torpaqların bərpası. Nüvə təhlükəsizlyi: Semipalatinsk poliqonunun mirası, regionun nüvə silahından azad zona statusu (MANZAS, 2006). Xəzərin hüquqi statusu konvensiyasının imzalanmasına (2018) rəğmən dənizin dibinin bölünməməsi və ekoloji problemin həllində boşluqlar. Əfqanıstanda Talibanın haimiyyətə gəlməsindən sonra region ölkələrinin təhlükəsizliyinə radikalizm təhdidləri.

**İxtisas ölkəsinin (Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası) Azərbaycanla münasibətləri (XX əsrin sonu – XXI əsrin əvvəlləri).** *Türkiyə Cümhuriyyəti.* Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması, diplomatik münasibətlərin qurulması. Azərbaycanın beynəlxalq birliyin tamhüquqlu subyekti olmaq istiqamətindəki fəaliyyətində Türkiyə ilə əməkdaşlığı. İkitərəfli və çoxtərəfli əməkdaşlığın istiqamətləri. Münasibətlərin yeni mərhələyə keçidi: "Bir millət, iki dövlət" modelindən müttəfiqliyə keçid: Şuşa Bəyannaməsi (15 iyun 2021). Hərbi və hərbi-texniki əməkdaşlıq çərçivəsində Azərbaycan ordusunun Türkiyə modelinə keçidi, birgə hərbi təlimlər. Beynəlxalq iqtisadi layihələr və təşkilatlar çərçivəsində əməkdaşlıq. Avropanın enerji təhlükəsizli baxımından Türkiyə-Azərbaycan əməkdaşlığı. Türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin reallaşdırılması istiqamətində əməkdaşlıq. Bir-birlərinin beynəlxalq və regional problemlərinə münasibətdə əməkdaşlıq. Türkiyənin Azərbaycanın geri qaytarılmış torpaqlarının bərpasında iştirakı. Türkiyə - Azərbaycan İkitərəfli və çoxtərəfli münasibətlərin SWOT təhlili.
*İxtisas ölkəsinin Azərbaycanla münasibətləri.* İxtisas ölkəsi ilə Azərbaycanın bir-birlərinin müstəqilliklərini tanımaları, diplomatik münasibətlərin qurulması. İkitərəfli və çoxtərəfli əməkdaşlığın istiqamətləri. Beynəlxalq iqtisadi layihələr və təşkilatlar çərçivəsində əməkdaşlıq. Bütünlükdə Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətlərdə yeni strateji mərhələyə keçid. Qazaxıstan və Özbəkistanla münasibətlərdə strateji tərəfdaşlıqdan müttəfiqliyə keçid. Azərbaycanın Türk dünyasıdaxili inteqrasiya proseslərindəki mərkəzi rolu kontekstində Türk Dövlətləri Təşkilatı çərçivəsində ixtisas ölkəsi ilə əməkdaşlığı. İkitərəfli və çoxtərəfli münasibətlərin SWOT təhlili. İxtisas ölkəsinin Azərbaycanın beynəlxalq və regional problemlərinə münasibətdə mövqeyi, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpasında iştirakı. İxtisas ölkəsinin beynəlxalq problemlərinə münasibətdə Azərbaycanın mövqeyi.

## BÖLMƏ IV.

## TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

### *ƏSAS ƏDƏBİYYAT*


1. Axundova N. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı: 2010, 327 s.
2. Aslanov R., Axundova N., Məmmədli A. Yaxın və Orta Şərq ölkələrinin orta əsrlər tarixi. Bakı: 1999, 206 s.
3. Baxşəliyev T. Slavyan ölkələri (1917-2015). Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik. Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 2016, 372 s.
4. Çağlayan.Y.H, N.Məmmədova, S.Zeynalova Orta əsrlər tarixi (Son orta əsrlər və ya erkən yeni dövrün başlanğıcı). Dərs vəsaiti. Bakı: Elm, 2017, 167 s.
5. Fətəliyev M., Qasımlı M. Avropa və Amerika ölklərinin müasir tarixi. II hissə. (1945-2002). Bakı: Adiloğlu, 2008, 338 s.
6. İsmayıl R. İ., Axundova N.Ç, Bağırova A.R. Ərəb ölkələrinin çağdaş tarixi. I hissə. Bakı: 2013, 400 s.
7. İsmayılov R., Axundova N., Bağırova A. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. (Cənub-Qərbi Asiya və Şimali Afrika). 1945-2001. II hissə. Bakı, 2004, 656s.
8. İsmayılov R., Axundova N. Asiya və Afrika ölkələrinin çağdaş tarixi. 1945-2000-ci illər. (Uzaq, Cənub-Şərqi, Cənubi və Mərkəzi Asiya ölkələri). II hissə. 1945-2001. Bakı, 2004, 406 s.
9. Kərimzadə P. Asiya və Afrika ölkələrinin müasir tarixi (1918-1945). Bakı: 2008, 246 s.
10. Qarayeva G.İ., Hacıqədirli A. Yaxın və Orta Şərq ölkələrinin yeni tarixi. Bakı: 2014, 244 s.
11. Гусейнова И.М. История народов Кавказа. Баку: Elm və Təhsil, 2018, 1248s.
12. Mahmudov Y. Orta əsrlər tarixi. Erkən feodalizm dövrü. Bakı: Təhsil, 2012, 213 s.
13. Mehdiyeva M. Türk xalqlarının tarixi. Yeni dövr. Dərslik. Bakı: Adiloğlu, 2010, 352 s.
14. Məmmədli A. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı: 2011, 568 s.
15. Muxtarova Ə. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Dərslik. Bakı: Adiloğlu, 2014, 604 s.
16. Muxtarova Ə. Türk xalqlarının dövlətçilik tarixinə dair (qədim dövr və orta əsrlər). Dərs vəsaiti. Bakı: Adiloğlu, 2025, 316 s. DOİ: 10.36719/41/2025
17. Orta əslər tarixi. Y.M.Mahmudovun tərcüməsində. I cild. Bakı: Maarif, 1988, 528 s.
18. Vəliyev T.T., Şahmuradov A.Ş. Slavyan ölkələri tarixi ( XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri). Bakı: 3 saylı Bakı mətbəəsi, 2012, 566 s.
19. Yerivanski M. Qədim Yunanıstan tarixi. Bakı: Azərtədrisnəşr, 1963, 122 s.
20. Yusifov Yusif. Qədim Şərq tarixi. Bakı: Çıraq, 2007, 535 s.


### *ƏLAVƏ ƏDƏBİYYAT:*


21. Ağayev İ.Q. Türkiyə 1918-1945-ci illərdə. Metodik vəsait. Bakı: N.Tusi adına ADPU-nun mətbəəsi, 1998, 104 s.
22. Baxışov M.Ə. Beynəlxalq münasibətlər tarixi (1918-2003). Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2012, 25,5 ç.v.
23. Baxışov M.Ə.ABŞ-ın yeni və müasir tarixi. Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2012, 11,2 ç.v.
24. Baxışov M. Avropa və Amerika ölkələrinin müasir tarixi (1918-1945). Dərs vəsaiti. Bakı: ATU-nun mətbəəsi, 2018, 21 ç.v.
25. Davies N. Europe: A History. New York: HarperCollins, 1998, 900 p.
26. Davudov Q.Ş. Yaponiya tarixi. Bakı: Elm və təhsil, 2014, 568 s.
27. Dubkovskaya A., Jarın M., Jarın Y., Polşa tarixi. Ən qədim zamanlardan bu günlərimizədək. Tərc.ed. Habil Məmmədov. Bakı: Mürtəcim, 2010, 378 s.

28. Gözəlova Y. Beynəlxalq münasibətlər tarixi (XVI –XVII əsrin birinci yarısı). Dərs vəsaiti. Bakı: Elm, 2006, 47 s.
29. Həsənov Y. Qədim Roma tarixi. Nəşrə hazırlayan prof.Ə.N.Dadaşov. Bakı: Azəri, 2018, 344 s.
30. İsabəyli A.Q. Pakistan müasir beynəlxalq münasibətlər sistemində. Bakı: 2005, 152 s.
31. Исмаилов Э.Р. Очерки истории России советского периода. Баку: Ziya- Nurlan, 2008, 248 с.
32. История Древнего Востока (под ред.В.И. Кузищина). Москва: Высшая школа, 2002, 416 с.
33. История древней Греции (под ред. В.И. Кузищина). Москва: Академия, 2006, 480 с.
34. История древнего мира. В 3-х томах. 3-е изд. (под ред. И.М.Дьяконова, В.Д.Нероновой, И.С.Свенцицкой). Москва: Наука, 1989, 407 с.
35. История средних веков. Т.1 (под ред. С.П.Карпова). 2-е изд. Москва: Издательство Московского Университета, 2001, 638 s.
36. История южных и западных славян: В 2-х томах. Учебник /Под ред. Г.Ф Матвеева и З.С.Ненашевой. Москва: Издательство МГУ, 2008, 692 с.
37. История России с древнейших времен до наших дней. Под ред. Сахаров А.Н. Москва: Издательство МГУ, 2009, 540 s.
38. История Польши (Пер. с польск. Тымовский М., Кеневия Я., Хольцев Е.). Москва: Весь мир, 2004, 544 с.
39. Новая история. Первый период (под ред. Е.Е.Юровской и др.). Москва: Высшая школа. 1972, 776 с.
40. Новая история. Второй период (под ред. Е.Е.Юровской и др.). Москва: Высшая школа. 1976, 542 с.
41. История новейшего времени стран Европы и Америки 1918-1945 (под. ред. Е.Ф.Языкова). Москва: Высшая школа. 1989, 463 с.
42. История новейшего времени стран Европы и Америки 1945-2000 гг. (под. ред. Е.Ф.Языкова). Москва: Простор, 2001, 478 с.
43. Гусейнова И., Алиев И. Азербайджан и Кавказско-Каспийский регион в период Мировой войны. Баку: АФполиграф, 2019, 230 с.
44. Qurbanov R.O. Qafqaz tarixi. Bakı: Gənclik, 2019, 524 s.
45. Готидзе М., Гусейнова И., Алиев И. Становление Азербайджано- грузинских отношений в военной сфере. Баку: АФполиграф, 2019, 264 с.
46. Летифова Э.М. История древней Греции. Баку: Бакы Университети, 2013, 116 с.
47. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 1996; 2006, 414 s.
48. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Издательство Бакинского Университета 1991, 262 с.; Москва: ИРИС ГРУПП, 2010, 390 с.
49. Məmmədli N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə (XX əsrin 90-cı illəri). Bakı: AzAtaM, 2005, 234 s.
50. Məmmədov H.N. Bolqarıstan tarixi. Bakı: Elm-Təhsil, 2009, 271 s.
51. Məmmədov H.N. Ukraynanın müasir tarixi (XX əsrin sonları-XXI əsrin əvvəlləri). Bakı: Elm-Təhsil, 2009, 178 s.
52. Новая история стран Азии и Африки. XVI-XIX века. В 3-х частях. Под ред. А.М.Родригеса. Часть 1, Москва: Высшая школа, 2010, 400 с., Часть 2, Москва: Высшая школа, 2010, 463 с., Москва: Высшая школа, 2010, Часть 3, 511 с.
53. Новейшая история стран Азии и Африки. XX век. В 3-х частях. Часть 1, Москва: Высшая школа, 2001, 368 с., Часть 2, Москва: Высшая школа, 2001, 320 с., Часть 3, Москва: Высшая школа, 2004, 272 с.

54. Orucov T. Qədim Roma: Qüdrətin qabarması və çəkilməsi. Bakı: Adiloğlu, 2008, 368 s.
55. Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı: Adiloğlu, 2005, 236 s.
56. Варакин А., Зданович Л. Тайны исчезнувших цивилизаций. Москва: Рипол, 2000, 480 с.
57. Türk Dünyası 2040 Vizyon – https://turkicstates.org/u/d/news/5-ek--turk-dunyasi-2040-vizyonu.pdf

## BÖLMƏ V.
## QİYMƏTLƏNDİRMƏ MEYARLARI
### Metodik göstərişlər

**Doktorantların 5503.01 – "ÖLKƏLƏR TARİXİ"** ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı proqramı üzrə attestasiyası şifahi imtahan şəklində aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı "Ölkələr tarixi" moduluna aid fənlər üzrə mühazirələr və seminarlar dövründə, həmçinin auditoriyadan kənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları.** İmtahan zamanı doktorant proqrama daxil edilmiş suallara ətraflı cavab verməlidir. İmtahan komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- İxtisas sahəsi ölkə haqqında əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkənin geosiyasi vəziyyəti haqqında əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkənin əhalisi, demoqrafik vəziyyəti haqqında əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkənin tarixi, mədəniyyəti, dini, dili haqqında əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkənin siyasi sistemi, xarici siyasəti haqqında əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkənin müasir beynəlxalq münasibətlər sistemində yeri və s. haqda əldə etdiyi bilikləri;
- İxtisas sahəsi ölkə ilə bağlı qarşısılaşa biləcəyi problemlərlə bağlı diskussiyalarda iştirak etmə, fikirlərini əsaslandırma bacarığını və s.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri (qapalı iclasda açıq səsvermə yolu ilə) **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün beş ballıq sistem əsasında **5 ("əla"), 4 ("yaxşı"), 3 ("kafi") və ya 2 ("qeyri-kafi")** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| **Ballar** | **Qiymətləndirmənin meyarları** |
|---|---|
| ***1*** | ***2*** |
| **5 (əla)** | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Elmi ixtisas üzrə yerli və xarici doktrinalar, aktual nəzəri problemlər, fənn üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. |

| *1* | *2* |
|---|---|
| **4 (yaxşı)** | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Elmi ixtisas üzrə yerli və xarici doktrinalar, aktual nəzəri problemlər, fənnlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Lakin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini qismən əsaslandırmağı bacarır. |
| **3 (kafi)** | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Elmi ixtisas üzrə yerli və xarici doktrinalar, aktual nəzəri problemlər, fənnlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. İxtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. |
| **2 (qeyri-kafi)** | Doktorantsualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Elmi ixtisas üzrə yerli və xarici doktrinalar, aktual nəzəri problemlər, fənnlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. İxtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. |

## VI BÖLMƏ.
## FƏLSƏFƏ DOKTORU İMTAHANINA HAZİRLAŞMAQ ÜÇÜN NÜMUNƏVİ SUALLAR

### Qədim dünya və orta əsrlər tarixi fənni üzrə

1. Şumer şəhər-dövlətləri
2. Hammurapinin daxili və xarici siyasəti
3. Misir XVIII sülalə fironlarının hakimiyyəti dövründə
4. Yeni Aşşur şahlığı
5. Makedoniyalı İsgəndərin Şərq yürüşü
6. Yunan-İran müharibələri
7. Peloponnes müharibəsi
8. Pun müharibələri
9. Xalqların Böyük köçü
10. Böyük Kralın daxili və xarici siyasəti
11. Bizans I Yustinianın dövründə
12. Xaç yürüşləri
13. Yüzillik müharibə
14. Xristofor Kolumb və Amerikanın kəşfi
15. Yelizaveta Tüdorun daxili və xarici siyasəti
16. Otuzillik müharibə

### Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi fənni üzrə

17. İngiltərə burjua inqilabının başlanması: Uzunmüddətli parlament, onun sosial tərkibi və siyasəti
18. Fransa maarifçiliyi, onun xarakterik cəhətləri
19. Fransa burjua inqlabı: monarxiyanın devrilməsi və respublikanın qurulması
20. Fransa konsulluq və Birinci imperiya dövründə
21. ABŞ-da Vətəndaş müharibəsi
22. Almaniyanın birləşdirilməsi
23. Fransa-Prussiya müharibəsi
24. Vaşinqton konfransı və onun qərarları
25. F.D.Ruzveltin "Yeni kurs"u
26. 1933-1939-cu illərdə faşist Almaniyasının xarici siyasəti
27. İngiltərədə Birinci və İkinci Leyborist hökümətlərinin daxili və xarici siyasəti
28. Fransada Xalq Cəbhəsi hökümətlərinin daxili və xarici siyasəti
29. ABŞ-da L.Conson hökümətinin daxili və xarici siyasəti

30. AFR-də H.Kol hökümətinin daxili və xarici siyasəti

31. F.Mitteranın prezidentliyi dövründə Fransanın daxili və xarici siyasəti

32. ABŞ-da U.Klinton hökümətinin daxili və xarici siyasət

33. ABŞ-Azərbaycan münasibətləri (1991-2015-ci illər)

**Asiya və Afrika ölkələri tarixi fənni üzrə**

34. Meyci inqilabı və onun nəticəsində həyata keçirilən tədbirlər

35. XX əsrin 60-80-ci illərində Yaponiyanın iqtisadi inkişafının əsas xüsusiyyətləri (“Yapon möcüzəsi”)

36. Sinxay inqilabı və onun nəticəsində həyata keçirilən tədbirlər

37. Çində “Dörd modernləşdirilmə xətti” və onun mahiyyəti

38. Şimali Koreyanın nüvə proqramı – Uzaq Şərqdə sabitliyin pozulmasına təhlükədir

39. Monqol imperiyası XIII əsrdə: yaranması, işğalları, daxili siyasəti

40. 1947-ci ildə Hindistan ərazisində iki müstəqil dövlətin yaranması və onların inkişaf yolları

41. Kəşmir məsələsi: tarixi kökləri, mahiyyəti, müasir vəziyyəti

42. ASEAN təşkilatı: yaranması, fəaliyyəti, perspektivləri

43. Əfqanıstan dövləti XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində

44. Sasanilər dövləti III-VI əsrlərdə beynəlxalq münasibətlər sistemində

45. İran inqilabı və İran İslam Respublikasının yaranması

46. XV-XVI əsrlərdə Osmanlı imperiyasının xarici siyasəti

47. XX əsrin 20-30-cu illərində Türkiyədə həyata keçirilən tədbirlər

48. Ərəb xilafəti: sosial-iqtisadi və siyasi münasibətlər

49. Yaxın Şərq böhranı: yaranması, istiqamətləri, müasir vəziyyəti

50. İkinci Dünya müharibəsindən sonra Afrikada müstəmləkə sisteminin dağılması və müstəqil dövlətlərin yaranması

**Qafqaz tarixi fənni üzrə**

51. Qafqazın qədim dövlətləri (b.e.ə.IV əsrin sonu - III əsr)

52. "Böyük Ermənistan" əfsanəsi: dəlillər və sübutlar

53. Qədim gürcü dövlətləri.(V əsr b.e.ə. Kolxida, İberiya)

54. Gürcüstan XII-XIII əsrlərdə

55. Qafqaz uğrunda Osmanlı-Səfəvi müharibələri

56. Türkmənçay müqaviləsindən sonra Cənubi Qafqazda baş verən demoqrafik dəyişikliklər

57. Georgiyevsk müqaviləsi və onun Cənubi Qafqaz üçün nəticələri

58. Şeyx Mənsur üsyanı

59. XIX əsrdə Qafqaz Rusiya imperiyasının siyasətində

60. XIX əsrdə  Şimali Qafqaz xalqlarının Rusiya imperiyasının müstəmləkəçilik siyasətinə qarşı milli-azadlıq mübarizəsi. Şamil hərəkatı

61. “Erməni məsələsi” XIX əsrin sonu –XX əsrin əvvəllərində

62. 1918-1921-ci illərdə Qafqazda müstəqil dövlətlərin yaranması

63. Qafqaz xalqları II Dünya müharibəsi illərində

64. Qafqazda etnik münaqişələr. “Dağlıq Qarabağ” problemi Qafqaz regionunun ən böyük etnik münaqişəsi kimi

65. Cənubi Qafqaz dövlətləri XX əsrin sonu-XXI əsrin əvvəllərində

66. Müstəqil Azərbaycan dövləti və müasir dövrdə Qafqazda irimiqyaslı geosiyasi layihələrin həyata keçirilməsi

**Slavyan ölkələri tarixi fənni üzrə**

67. İlk slavyan feodal dövləti

68. Slavyan ölkələrində mərkəzləşdirilmiş dövlətin yaranması

69. XVI-XVII əsrlərdə clavyan ölkələrinin xarici siyasəti. Otuzillik müharibə

70. Rusiya XVIII əsrdə

71. XIX əsrdə Rusiyanın daxili vəziyyəti

72. XIX əsrin I yarısında Rusiyanın işğalçılıq siyasəti

73. XIX əsrin I yarısında Cənub və Qərb slavyan ölkələrində milli hərəkat

74. XIX əsrin II yarısında Rusiyanın xarici siyasəti

75. XIX əsrin II yarısında Cənub və Qərb slavyan ölkələrində milli-azadlıq hərəkatı. Milli dövlətlərin yaranması

76. XX əsrin əvvəllərində Rusiyada siyasi vəziyyət

77. XX əsrin əvvəllərində Rusiyanın xarici siyasəti

78. Cənub və Qərb slavyan ölkələri XX əsrin əvvəllərində

79. Slavyan ölkələri I Dünya müharibəsi illərində

80. SSRİ-nin təşkili. 1920-1930-cu illərdə SSRİ-nin siyasi həyatı

81. 1920-1930-cu illərdə SSRİ-nin xarici siyasəti

82. Bolqarıstan və Yuqoslaviya 1919-1939-cu illərdə

83. Polşa və Çexoslovakiya 1919-1939-cu illərdə

84. SSRİ II Dünya müharibəsi illərində

85. Cənub və Qərb slavyan ölkələri II Dünya müharibəsi illərində

86. SSRİ 1946-1985-ci illərdə. SSRİ-nin süqutu

87. Rusiya Federasiyası 1991-ci ildən sonra

88. Qərb slavyan dövlətləri II Dünya müharibəsindən sonrakı dövrdə

89. Cənub slavyan dövlətləri II Dünya müharibəsindən sonrakı dövrdə

90. Slavyan dövlətləri XXI əsrin ilk onilliyində

**Türk xalqları tarixi fənni üzrə**

91. Türkiyə Cümhuriyyəti (ümumi məlumat)

92. Türkiyə türkləri: tarixi-analitik arayış

93. Türkiyə Cümhuriyyətinin müasir inteqrasiya proseslərində iştirakı

94. Türkiyə Cümhuriyyətinin beynəlxalq problemləri

95. Türk xalqları Çar Rusiyasının tərkibində (XVI-XX əsrin əvvəlləri)

96. SSRİ Mərkəzi hökumətinin türk respublikalarına münasibətdə siyasəti

97. SSRİ-nin dağılması prosesində türk respublikalarının müstəqilliklərini elan etməsi (ixtisas ölkəsi nümunəsində)

98. İxitsas ölkəsi respublikanın Azərbaycanla münasibətləri (XX əsrin sonu – XXI əsrin əvvəlləri)

99. Qazaxıstan Respublikası (ümumi məlumat)

100. Qazaxlar: tarixi-analitik arayış

101. Qazaxıstan Respublikasının müasir inteqrasiya proseslərində iştirakı

102. Qırğızıstan Respublikası (ümumi məlumat)

103. Qırğızlar: tarixi-analitik arayış

104. Qırğızıstan Respublikasının müasir inteqrasiya proseslərində iştirakı

105. Özbəkistan Respublikası (ümumi məlumat)

106. Özbəklər: tarixi-analitik arayış

107. Özbəkistan Respublikasının müasir inteqrasiya proseslərində iştirakı

108. Türkmənistan Respublikası (ümumi məlumat)

109. Türkmənlər: tarixi-analitik arayış

110. Türkmənistan Respublikasının müasir inteqrasiya proseslərində iştirakı